*Layihə*

# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**№ _____**

**Bakı şəhəri** **«      » ____________ 201_-ci il**

## Əsərlərin dövlət varidatı elan edilməsi haqqında

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin 2-ci bəndinə və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 1583 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması prosesi ilə əlaqədar qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılması üzrə “Tədbirlər Planı”nın 2.1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. “Əsərlərin dövlət varidatı elan edilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Müəlliflik hüququnun qüvvədə olma müddətinin başa çatması ilə əlaqədar aşağıda göstərilən müəlliflərin ictimai varidat sayılan əsərləri dövlət varidatı elan edilsin:

Məhsəti Gəncəvi
Əfzələddin Xaqani
Nizami Gəncəvi
Qazi Bürhanəddin
İmadəddin Nəsimi
Aşıq Qurbani
Şah İsmayıl Xətai
Məhəmməd Füzuli
Aşıq Abbas Tufarqanlı
Molla Pənah Vaqif
Molla Vəli Vidadi
Qasım bəy Zakir
Mirzə Fətəli Axundov
Həsənbəy Zərdabi
Seyid Əzim Şirvani
Xurşidbanu Natəvan

Mirzə Ələkbər Sabir
Nəcəf bəy Vəzirov
Aşıq Ələsgər
Cəlil Məmmədquluzadə
Əbdülrəhimbəy Haqverdiyev
Cəfər Cabbarlı
Əhməd Cavad
Mikayıl Müşfiq
Əhməd bəy Ağayev
Əlibəy Hüseynzadə
Hüseyn Cavid
Əzim Əzimzadə
Yusif Vəzir Çəmənzəminli
Üzeyir Hacıbəyov
Səməd Vurğun
Əliağa Vahid

3. Aşağıda adları göstərilən ictimai varidat sayılan filmlər dövlət varidatı elan edilsin:

“Bismillah”
“Sevil”
“Lətif”
“İyirmi altı komissar”
“İsmət”
“Mavi dənizin sahilində”
“Almaz”
“Bakılılar”
“Kəndlilər”
“Səbuhi”
“Bir ailə”
“Arşın mal alan”

4. Dövlət varidatı elan olunmuş əsərlərdən istifadəyə görə müəllif qonorarı səviyyəsində xüsusi ödənişlər istifadəçilər tərəfindən “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli 38 nömrəli qərarı ilə təsdiq edilmiş Əlavə 3-də göstərilən tarif dərəcələrinə uyğun olaraq tam miqdarda hesablanaraq, Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin xəzinə hesabına köçürülsün.

5. Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi dövlət varidatı elan olunmuş əsərlərdən istifadəyə görə xəzinə hesabına daxil olan vəsaitin dövlət büdcəsinə köçürülməsini təmin etsin.

6. Bu qərar imzalandığı tarixdən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**

**Azərbaycan Respublikası**
**Nazirlər Kabinetinin 201_-ci il**
**_____________ tarixli ______**
**nömrəli qərarı ilə təsdiq edilmişdir**

## Əsərlərin dövlət varidatı elan edilməsi
## QAYDALARI

1. Müəlliflik hüququnun qanunvericiliklə müəyyən edilmiş qorunma müddəti başa çatdıqdan sonra həm aşıqlanmış (dərc edilmiş), həm də açıqlanmamış (dərc edilməmiş) elm, ədəbiyyat və incəsənət əsərləri ictimai varidata keçir.

2. İctimai varidat dairəsinə keçmiş əsərlərdən istifadə sərbəstdir və onlardan istifadəyə görə qonorar ödənilmir.

3. Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi (bundan sonra **"Agentlik"**) qorunma müddəti bitdiyinə görə ictimai varidata keçmiş əsərləri müəyyənləşdirir və onların uçotunu aparır.

Agentlik aidiyyəti dövlət orqanları və yaradıcılıq təşkilatları ilə razılaşdırmaqla ictimai varidat sayılan Azərbaycan müəlliflərinin elm, ədəbiyyat və incəsənət əsərlərinin dairəsindən elmin, ədəbiyyatın və incəsənətin zənginləşməsində müstəsna rol oynayan, geniş oxucu və tamaşaçı kütləsinin dərin rəğbətini qazanan, habelə yüksək bədii, estetik və sənətkarlıq dəyərinə malik olan əsərləri seçərək, onların dövlət varidatı elan olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər  verir.

4. İctimai varidat sayılan əsərlər dairəsindən seçilən əsərlər Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən dövlət varidatı elan edilir.

Agentlik dövlət varidatı elan edilmiş əsərlərin xüsusi qeydiyyatını və bu əsərlərdən istifadəyə görə ödənişlərin yığımını təşkil edir, onların elektron məlumat bazasını yaradır.

5. Dövlət varidatı elan olunmuş əsərlərdən istifadəyə görə müəllif qonorarı səviyyəsində xüsusi ödənişlər ödənilməlidir.

Agentlik dövlət varidatı elan olunmuş əsərlərdən istifadə ilə bağlı məlumatları ümumiləşdirir və nəticələr barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə ildə bir dəfədən az olmamaqla hesabat təqdim edir.

6. Dövlət varidatı elan olunmuş əsərlərin müəlliflərinin şəxsi hüquqları qanunla qorunur.

Dövlət varidatı elan olunmuş əsərin müəllifinin ad hüququ pozulduqda, əsərin mənası dəyişdirildikdə, məzmunu təhrif olunduqda, müəllifin şərəf və ləyaqətinə xələl gətirən hərəkətlərə yol verildikdə müəllifin vərəsələri, yaxud Azərbaycan Respublikasının  Müəllif  Hüquqları Agentliyi tərəfindən məhkəmədə iddia qaldırılır və digər lazımi tədbirlər görülür.

---